***Bu gün Məmməd Arazın doğum günüdür***

# İLHAMIM

***Xudu Məmmədova***



***Yenə dağ döşündə dənərləndi qar,***
***Yenə zirvələrin həsrətində qal,***
***Sel qopdu, dərəyə düşdü qalmaqal...***
***Bir ocaq başında bir isinməsək***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək?!***

***Şimşək yelkəninə qoşulu anlar,***
***Göy bizi yamanlar, yer bizi danlar.***
***Görüm ayılmaya gec ayılanlar...***
***Dolular qırımlı, daşlar döyənək...***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək?!***

***Bax donqar dəvənin səbət yükünə,***
***Bənzəyir içi boş şöhrət yükünə.***
***Ömür karvanının sənət yükünə***
***Bir-iki qeyrətli söz yükləməsək***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək?!***

***Tarix qayalarda yazı qalırmı?***
***Çoxu çoxdan itib, azı qalırmı?***
***Dağ öz duruşundan razı qalırmı?***
***Yalan-yarğanlara nağıl söyləsək,***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək?!***

***Bu dağlar qardaşım, bu çaylar bacım,***
***Özündən gəlməyən özündən qaçır.***
***Zaman qapımızda əlində qayçı...***
***Hər adi ölçüyə, ülgüyə gəlsək***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək?!***

***Keçək dərələrin boğanağından,***
***Keçək dolayların doğanağından,***
***Günəşin zirvədə doğan anından***
***Nur alıb, bu yurda səpələməsək***
***Sən kimə gərəksən,***
***Mən kimə gərək?!***

ədalət.- 2021.- 14 oktyabr.- S.1